“Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1169 nömrəli Fərmanının Siyəzən rayonunda icrasını təmin etmək məqsədilə Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərancamı ilə Siyəzən rayonu üzrə ictimai əsaslarla fəaliyyət göstərən İnkişafın Planlaşdırılması Şurası yaradılmışdır.

Siyəzən rayonu üzrə ictimai əsaslarla fəaliyyət göstərən İnkişafın Planlaşdırılması Şurası tərəfindən Siyəzən rayonunda “Kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli İnkişaf Planı”nı hazırlanmışdır. Plan hazırlanarkən əvəlki illərdə görülmüş işlər və Siyəzən rayonun 2021-ci il oktyabrın 1-i vəziyyətinə sosial-iqtisadi inkişafı ilə bağlı ilkin məlumatlara istinad edilmişdir.

## Umumi məlumat

Siyəzən rayonu ilk dəfə 1940-cı ilin fevral ayının 11-də təşkil edilmişdir. Neftə görə Siyəzən şəhərinə xeyli sayda əhali gəlmiş, bunların arasında müxtəlif millətlərin nümayəndələri də olmuşdur. Lakin 1959-cu ilin dekabr ayının 4-də Siyəzən rayonu ləğv edilərək bir müddət Abşeron rayonuna, daha sonra Şabran rayonunun tərkibinə verilmişdir. Buna baxmayaraq Siyəzən şəhərində xüsusi evlərin və neftçilər üçün tikilən beşmərtəbəli yaşayış binalarının sayı çoxalmış və əhali getdikcə artmışdır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Siyəzən şəhəri yaxınlığında Siyəzən Broyler Fabrikinin tikilməsi şəhərin daha da böyüməsində əsas rol oynamışdır. Məhz bu fabrikin fəhlələri üçün beşmərtəbəli yaşayış binaları, məktəb, uşaq bağçası və sair infrastruktur binaları tikilmiş, Siyəzən şəhərinin siması daha da gözəlləşmişdir. Nəhayət 1992-ci il aprel ayının 2-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarı ilə Siyəzən rayonu 1959-cu il sərhədləri daxilində yenidən bərpa olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 24 dekabr 2004, 15 avqust 2011, 18 iyul 2013 və 8 avqust 2015-ci ildə (**4 dəfə)** Siyəzən rayonuna səfər etmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva 24 dekabr 2004-cü il tarixdə ölkə başçısı ilə birgə Siyəzən rayonunda olmuşdur.

Siyəzən rayonunda 1 şəhər, 1 qəsəbə və 32 kənd olmaqla 34 yaşayış məntəqəsi vardır.

| | |
|---|---|
| **Ərazisi** | **- 703 $km^2$** |
| **Əhalisi** | **- 43,03 min nəfər** |
| o cümlədən: | |
| **Məcburi köçkünlər** | **- 116 nəfər (30 ailə)** |
| **Qaçqınlar** | **- 235 nəfər (47ailə)** |
| **Əhalinin sıxlığı** | **- 1 $km^2$ -də 61 nəfər** |
| **Yaşayış məntəqələrinin sayı** | **- 34** |
| o cümlədən: | |
| **Şəhər** | **- 1** |
| **Qəsəbə** | **- 1** |
| **Kənd** | **- 32** |
| **İnzibati ərazi dairəsi üzrə nümayəndəliklər** | **- 11** |
| **Bələdiyyələr** | **- 11** |
| **Siyəzən-Bakı məsafəsi** | **- 103 km** |

## Rayonun istifadəsində olan torpaqlar (ha)

| | |
|---|---|
| Cəmi | 68005 |
| Ondan: | |
| Əkin | 12203 |
| Meyvə | 208 |
| Üzüm | 51 |
| Dinc | 40 |
| Biçənək | 300 |
| Yararlı örüş | 25303 |
| Həyətyanı | 1686 |
| Meşə fondu | 6141 |
| Yararsız örüş | 5241 |
| Kolluqlar | 6493 |
| Su fondu | 618 |
| Yollar, küçələr | 1002 |
| Qobu, yarğan, dərə, qumluq, dağlıq, çınqıllıq, şoranlıq, lillik və sair | 6221 |
| Qəbirstanlıq | 44 |
| Tikinti altında | 2454 |

**2021-ci ilin yanvar ayının 1-i vəvəziyyətinə Siyəzən rayonunda yaşayış məntəqələri üzrə əhalinin dislokasiyası aşağıdakı kimi olmuşdur:**

| s/s | İnzibati ərazi dairələri və onların əhatə etdiyi yaşayış məntəqələri | Mövcud təsərrüfatlar | əhalinin sayı<br>cəmi |
|---|---|---|---|
| | **Daimi yaşayanlar** | **7861** | **42921** |
| | **Şəhər əhalisi** | **4955** | **27456** |
| 1 | Siyəzən şəhəri | 4750 | 26284 |
| 2 | Gil-gil çay qəsəbəsi | 205 | 1172 |
| | ***Kənd yerləri üzrə cəmi*** | **2979** | **15396** |
| 3 | **Eynibulaq kənd İƏD** | **201** | **1156** |
| | Eynibulaq kəndi | 201 | 1156 |
| 4 | **Həmyə kənd İƏD** | **663** | **3475** |
| | Böyük Həmyə kəndi | 436 | 2283 |
| | Balaca Həmyə kəndi | 227 | 1192 |
| 5 | **Sədan kənd İƏD** | **148** | **859** |
| | Sədan kəndi | 128 | 773 |
| | Müşkülqazma kəndi | 2 | 4 |
| | Sağolcan kəndi | 7 | 20 |
| | Çarxana kəndi | 11 | 62 |
| 6 | **Dağ Quşçu kənd İƏD** | **105** | **620** |
| | Dağ Quşçu kəndi | 104 | 616 |
| | Əlməkolu kəndi | 1 | 4 |
| 7 | **Yenikənd kənd İƏD** | **831** | **4072** |
| | Yenikənd kəndi | 732 | 3567 |
| | Tuğay kəndi | 97 | 501 |
| | Kolanı kəndi | 2 | 4 |
| 8 | **Məşrif kənd İƏD** | **323** | **1979** |
| | Məşrif kəndi | 145 | 885 |
| | Qalaaltı kəndi | 47 | 255 |
| | Qozağacı kəndi | 71 | 482 |

| | | | |
|---|---|---|---|
| | Qərəh kəndi | 8 | 23 |
| | Daşlı Çalğan | 36 | 225 |
| | Orta Çalğan | 16 | 109 |
| 9 | **Zarat kənd İƏD** | **380** | **1972** |
| | Zarat kəndi | 342 | 1772 |
| | Cəndəhar kəndi | 12 | 67 |
| | Qalaşıxı kəndi | 27 | 133 |
| 10 | **Beşdam kənd İƏD** | **171** | **906** |
| | Beşdam kəndi | 109 | 695 |
| | Nardaran kəndi | 14 | 45 |
| | Dərə Zarat kəndi | 16 | 52 |
| | Siyəzən kəndi | 32 | 114 |
| 11 | **Ərziküş kənd İƏD** | **83** | **426** |
| | Ərziküş kəndi | 12 | 44 |
| | Yuxarı Ələz kəndi | 34 | 193 |
| | Qaragöz kəndi | 4 | 22 |
| | Hacışəkər kəndi | 10 | 68 |
| | Künövşə kəndi | 7 | 27 |
| | Yanıq Ələz kəndi | 10 | 60 |
| | Köhnə Quşçu | 6 | 12 |

2021-ci il oktyabrın 1-i vəziyyətinə isə ilkin məlumatlara əsasən rayon əhalisinin sayı 43030 nəfər olmuş və 109 nəfər, yaxud 0,3 faiz artmışdır. Rayon üzrə əhalinin ümumi sayından 64,1 faizi şəhər, 35,9 faizi isə kənd yerlərində yaşayır. Rayon əhalisinin ümumi sayından 49,9 faizi kişi, 50,1 faizi qadınlardır.

Əhalinin ümumi sayından 25,5 faizi 0-14 yaşda, 68,7 faizi 15-64 yaşda, 5,8 faizi isə 65 və yuxarı yaşda olanlardır.

Rayon üzrə əhalinin orta yaşı 32,7 təşkil edir.

## Siyəzən rayonunun sosial-iqtisadi inkişafı

Siyəzən rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 2003-2020-ci illə müqayisədə 4,6 dəfə artaraq 233,8 milyon manat olmuşdur.

Ölkə üzrə ümumi məhsul buraxılışının həcmində xüsusi çəkisi 0,3 faizdir.

2021-ci ilin yanvar-sentyabr aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı ilkin hesablamalara əsasən 13,9 faiz artaraq faktiki qiymətlərlə 198701,3 min manat təşkil etmişdir. Ümumi məhsul buraxılışının 51,2 faizi kənd təsərrüfatının, 26,9 faizi tikintinin, 14,3 faizi ticarətin, 6,7 faizi sənayenin, 0,9 faizi nəqliyyat və rabitə sektorunun payına düşmüşdür. Ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi 70,0 faiz təşkil etmişdir.

**İqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışının strukturu,** yekuna nisbətən faizlə

- Kənd təsərrüfatı (51,2%)
- Tikinti (26,9%)
- Ticarət (14,3%)
- Sənaye  (6,7%)
- Nəqliyyat (0,6%)
- Rabitə (0,3%)

## Makroiqtisadi göstəricilər

min manat

| | 2021-ci ilin yanvar-sentyabr ayları | 2021-ci ilin yanvar-sentyabr ayları, 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı | 198701,3 | 113,9 |
| Əhalinin hər nəfərinə düşən ÜMB | 4642,6 | 112,9 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi | 13220,1 | 93,9 |
| Əsas kapitala yönəldilən investisiyalar | 69479,3 | 119,7 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 101819,3 | 111,0 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 459,0 | 89,5 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin | 3668 | 86,1 |

| | | |
|---|---|---|
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 496,8 | 110,9 |
| Pərakəndə əmtəə dövriyyəsi | 64160,0 | 106,1 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər | 11312,0 | 96,6 |
| Rayon büdcəsinin gəlirləri | 4103,8 | 110,2 |
| Rayon büdcəsinin xərcləri | 1975,7 | 127,0 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manatla | 562,6 | 102,5 |
| Qeydə alınmış işsiz şəxslərin sayı (2021-ci il oktyabr ayının 1-nə), nəfər | 145 | - |
| Onlardan işsizlikdən sığorta ödənişi alanların sayı (2021-ci il oktyabr ayının 1-nə), nəfər | 22 | - |

## Sənaye

Sənaye məhsulu istehsalı 2003-2020-ci illə müqayisədə 196,9 faiz artaraq 16,2 milyon manat olmuşdur. Fəaliyyət göstərən 24 sənaye müəssisəsi vardır.

2021-ci ilin yanvar-sentyabr aylarında sənaye müəssisələri, bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 13220,1 min manat təşkil etmişdir. Ümumi istehsalın 46,0 faizi sənaye malları istehsalından, 54,0 faizi sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur. Məhsul istehsalı və xidmətlərin ümumi həcminin 73,6 faizi və ya 9735,9 manatı dövlət mülkiyyətinin, 26,4 faizi və ya 3484,2 manatı xüsusi mülkiyyətin, o cümlədən 12,1 min manatı fərdi sahibkarların, 2331,3 min manatı ev təsərrüfatlarının payına düşmüşdür.

**Sənaye istehsalının sahə strukturu,** yekuna nisbətən faizlə



B- Mədənçıxarma sənayesi- 24,3%
C- Emal sənayesi- 21,6%
D- Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı- 46,7%
E- Su təchizatı, tullantıların təmizlənməsi və emalı- 7,4%.

Mədənçıxarma sənayesində ilin əvvəlindən faktiki qiymətlərlə 3214,4 min manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,2 dəfə çox məhsul istehsal edilmişdir. Natural ifadədə ilin əvvəlindən 41,3 min ton və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 50,2 faiz çox neft, 5,5 milyon kub metr və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 37,5 faiz çox qaz, 182,1 min ton çınqıl, 17,2 min ton beton üçün, yolların döşənməsi və digər tikinti işləri üçün sair xırdalanmış daş hasil edilmişdir.

Emal sənayesində faktiki qiymətlərlə 2852,5 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 49,8 faiz azdır. İstehsal edilmiş məhsulun 2456,4 min manatı qida məhsullarından, 381,6 min manatı içkidən, 2,0 min manatı üst geyimindən, 12,5 min manatı plastmas məmulatlardan ibarət olmuşdur. Natural ifadədə ilin əvvəlindən 3,1 min dkl distillə edilmiş spirtli içkilər, 12,5 min dkl təzə üzümdən köpüklənən şərab, 29,5 ton sərt plastmasdan borular, borucuqlar və şlanqlar, 17 ədəd ofis üçün taxta mebellər istehsal edilmişdir.

Əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla istehsalçı müəssisələrin anbarlarında oktyabrın 1-i vəziyyətinə 521,5 min manatlıq hazır məhsul qalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində sənaye xarakterli xidmətlərin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,4 faiz azalaraq 6179,2 min manat təşkil etmiş, ilin əvvəlindən istehlakçılara 63,1 milyon kvt/saat elektrik enerjisi, 20,1 milyon kub metr qaz, 0,5 min Qkal istilik enerjisi paylanmışdır.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində sənaye xarakterli xidmətlərin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 34,9 faiz artaraq 974,0 min manat təşkil etmiş, ilin əvvəlindən istehlakçılara 1,1 milyon kub metr su paylanmış, 194,1 min manatlıq tullantı suları təmizlənmiş və tullantılar ləğv edilmiş, 165,5 min manatlıq istifadə üçün yararlı olmayan təhlükəsiz tullantılar yığılaraq məhv edilmişdir.

Son illərdə rayonda bir sıra özəl sənaye müəssisələri yaradılmış və fəaliyyət göstərir. Hazırda rayonda sənaye məhsulları istehsalı üzrə 7 çınqıl-qırmadaş istehsalı müəssisəsi, 1 kərpic zavodu, 1 plastik məmulatlar istehsalı müəssisəsi,1 mebel sexi, 1 beton zavodu, 1 asfalt zavodu, kənd təsərrüfatı məhsulları emalı üzrə 1 şərab zavodu, 1 un dəyirmanı, 2 çörəkbişirmə sexi və digər müəssisələr fəaliyyət göstərir.

İl ərzində yeni istehsal müəssisələrinin yaradılması ilə bağlı sahibkarlardan daxil olmuş müraciətlərə diqqət artırılmış və onların müraciətləri müsbət həll olunmuşdur.

Bunlarla yanaşı bu sahədə real çətinliklər də vardır. Belə ki, “Siyəzənneft” NQÇİ-nin fəaliyyəti ölkədə aparılan səmərəli iqtisadi islahatlara uyğun yenidən qurulur, təkmilləşdirilir, bu da əl əməyinin azalması səbəbindən iş yerlərinin ixtisar olunmasına və azalmasına səbəb olur. Son illərdə bu sahəyə aid bir neçə müəssisə bağlanmış, qalanlarda isə 30-40 faiz ixtisarlar aparılmışdır. Neftlə əlaqəli idarə və müəssisələrdə əsasən Siyəzən şəhər əhalisi işlə təmin olunduğundan və hazırda həmin şəxslərin işsiz qalmaları Siyəzən şəhərində işsiz əhalinin çoxalmasına səbəb olur.

“Siyəzənneft” və digər neftlə əlaqəli idarə və müəssisələrdə ixtisarların dayandırılması, yeni iş yerlərinin yaradılması məqsədəmüvafiqdir.

Cari ildə kiçik həmli süd emalı müəssisəsi işə balamış, 1 ədəd meyvə saxlanılması üçün soyuducu və meyvə çeşidləmə sexinin quraşdırılmasına başlanılmışdır.

Rayonda kənd təsərrüfatı məhsullarının kiçik həcmli emal müəssisələrinin yaradılması mümkündür.

**Mövcud istehsal sahələri (sənaye məhsulları üzrə)**

| İstehsal müəssisəsinin adı | İstehsal növü | Fəaliyyəti |
|---|---|---|
| "Siyəzənneft" NQÇİ | Neft-qaz çıxarılması | Fəaliyyət göstərir |
| Magistral Qaz Kəmərləri İdarəsi | Neft-qaz nəqli | Fəaliyyət göstərir |
| Abşeron Qazma İşlər İdarəsinin Siyəzən Qazma Sexi | Neft-qaz quyularının qazılması | Fəaliyyət göstərir |
| Texnoloji Nəqliyyat Sexi | Nəqliyyat daşımaları | Fəaliyyət göstərir |
| "Tibet N" MMC | Qum, otsev, şeben, çınqıl | Fəaliyyət göstərir |
| "Siyəzən kərpic zavodu" | kərpic | Fəaliyyət göstərir |
| "Asko LTD" Şirkəti | Qum, atsep, şebel, çınqıl | Fəaliyyət göstərir |
| "İmpeksar" firması | Qum, atsep, şebel, çınqıl | Fəaliyyət göstərir |
| "RİVAES" MMC | Qum, atsep, şebel, çınqıl | Fəaliyyət göstərmir |
| Çınqıl-qırmadaş istehsalı müəssisəsi (fiziki şəxs Cəlilov Azad Muradoğlu) | Qum, atsep, şebel, çınqıl | Fəaliyyət göstərir |
| "Azərtikinti Quraşdırma Servis-23" ASC | Qum, atsep, şebel, çınqıl | Fəaliyyət göstərir |
| "Siyəzən Polimer Sənaye Parkı" MMC | Plastik məmulatlar | Fəaliyyət göstərir |
| "Qazax Sement" MMC-nin Siyəzən Beton zavodu | Müxtəlif markalı beton | Fəaliyyət göstərir |
| Mebel sexi | Ofis üçün taxta mebellər | Fəaliyyət göstərir |
| Çınqıl-qırmadaş istehsalı müəssisəsi (fiziki şəxs İlyasov Mütəllim Böyükağa oğlu) | Qum, atsep, şebel, çınqıl | Fəaliyyət göstərir |
| "2 nömrəli Yİİ" MMC-nin asfalt zavodu | Asfalt-beton | Fəaliyyət göstərir |
| "Azpetrol" MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| "Azpetrol" MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| "Latoil" MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| "SOKAR" Yanacaqdoldurma məntəqəsi | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| "Zaur Petrol" MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| Maye qazdoldurma Məntəqəsi | Sıxılmış qaz məhsulunun satışı | Fəaliyyət göstərir |

**Kənd təsərrüfatı**

Kənd təsərrüfatı məhsulu istehsalı 2003-2020-ci illə müqayisədə 193,6 faiz artaraq 113,1 milyon manat olmuşdur.

Son iki ildə kənd təsərrüfatı sahəsində bir neçə özəl investisiya layihəsinin icrasına başlanılmış və işlərin icrası davam etmişdir.

2021-ci ilin yanvar-sentyabr aylarında rayon üzrə 101819,3 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,0 faiz çoxdur. İstehsal edilmiş məhsulun 6965,6 min manatı və ya 6,8 faizi bitkiçilik, 94853,7 min manatı və ya 93,2 faizi heyvandarlıq məhsullarından ibarət olmuşdur.

**Bitkiçilik.** Oktyabr ayının 1-i vəziyyətinə 6181,0 hektar dənli və paxlalı bitkilər əkini sahəsindən 13265,8 ton və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,7 faiz çox dənli və paxlalı bitkilər, o cümlədən 3338,0 hektar buğda əkini sahəsindən 6776,0 ton buğda, 2825,0 hektar arpa əkini sahəsindən 6453,0 ton arpa, 16,0 hektar dən üçün qarğıdalı əkini sahəsindən 33,1 ton qarğıdalı, 2,0 hektar paxlalı bitkilər əkini sahəsindən 3,7 ton paxlalı bitkilər yığılmışdır. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə dənli və paxlalı bitkilərin məhsuldarlığı 13,2 faiz artaraq 21,5 sen/ha olmuşdur.

Oktyabr ayının 1-i vəziyyətinə 124,1 hektar kartof, tərəvəz, bostan məhsulları sahəsindən 1044,0 ton, o cümlədən 25,0 hektar sahədən 225,0 ton kartof, 76,1 hektar sahədən 619,8 ton tərəvəz, 23 hektar sahədən 199,2 ton bostan bitkiləri, bağlardan 1510,7 ton meyvə və giləmeyvə, 244,8 ton üzüm yığılmışdır.

**Heyvandarlıq.** Oktyabr ayının 1-i vəziyyətinə 333 inək, camış və düyə elit törədicilərin toxumu ilə mayalanmış, süni mayalanmadan 127 baş bala alınmış, iri buynuzlu mal-qaranın baş sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,7 faiz artaraq 14558 başa, qoyun və keçilərin baş sayı 0,1 artaraq 55152 başa çatmış, diri çəkidə 20186,4 ton ət, o cümlədən 18470,9 ton quş əti, 10600,3 ton süd, 10655 min yumurta, 97,0 ton yun istehsal edilmiş, əvvəlki ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 10,1 faiz, o cümlədən quş əti istehsalı 11,0 faiz, süd istehsalı 2,2 faiz, yumurta istehsalı 0,5 faiz, yun istehsalı 1,0 faiz artmışdır.

**Mal-qaranın sayı,** baş

Cədvəl 1

| | 2021-ci ilin yanvar-sentyabr ayları | 2020-ci ilin yanvar-sentyabr ayları | 2021-ci ilin yanvar-sentyabr ayları, 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| İri buynuzlu mal-qara | 14558 | 14175 | 102,7 |
| | | | |
| İnək və camışlar | 6899 | 6835 | 100,9 |
| Qoyun və keçilər | 55152 | 55142 | 100,1 |
| Donuzlar | - | 21 | - |

**Heyvandarlıq məhsullarının istehsalı,** ton

Cədvəl 2

| | 2021-ci ilin yanvar-sentyabr ayları | 2020-ci ilin yanvar-sentyabr ayları | 2021-ci ilin yanvar-sentyabr ayları, 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Ət (diri çəkidə) cəmi | 20186,4 | 18331,1 | 110,1 |
| o cümlədən: | | | |
| inək əti | 1091,9 | 1071,6 | 101,9 |

| | | | |
|---|---|---|---|
| camış əti | 41,1 | 40,0 | 102,8 |
| qoyun əti | 541,2 | 528,0 | 102,5 |
| keçi əti | 41,6 | 55,5 | 75,5 |
| quş əti | 18470,6 | 16636,0 | 111,0 |
| Süd (fiziki çəkidə) cəmi | 10600,3 | 10370,0 | 102,2 |
| o cümlədən: | | | |
| inək südü | 10260,6 | 9971,5 | 102,9 |
| camış südü | 266,5 | 260,0 | 102,5 |
| qoyun südü | 20,2 | 34,4 | 58,7 |
| keçi südü | 53,0 | 104,1 | 50,9 |
| Yumurta (min ədəd) | 10655,0 | 10600,0 | 100,5 |
| Yun (fiziki çəkidə) | 97,0 | 96,0 | 101,0 |

**Mövcud istehsal sahələri (kənd təsərrüfatı məhsulları üzrə)**

| İstehsal müəssisəsinin adı | İstehsal növü | Fəaliyyəti |
|---|---|---|
| "Siyəzən-Broyler" MMC | Quş əti istehsalı | Fəaliyyət göstərir |
| "Caspian-Coast Winery and Vineryards" MMC | Müxtəlif növ şərab, konyak və araq | Fəaliyyət göstərir |
| Çandahar quşçuluq fermer təsərrüfatı | Quş əti istehsalı | Fəaliyyət göstərir |
| Taxıl terminalı (fiziki şəxs Qardaşov Vüqar Saday oğlu) Tutumu 42 000 ton | Taxıl məhsulları | Fəaliyyət göstərir |
| "MMZ"MMC quşçuluq | Quş əti və yumurta istehsalı | Fəaliyyət göstərir |
| Quş əti və tərəvəz istehsalı (fiziki şəxs Qasımov Elsevər Əmirşah oğlu) | Quş əti istehsalı və tərəvəz istehsalı | Fəaliyyət göstərir |
| Un dəyirmanı (fiziki şəxs Şahpələngov Şirin Saməddin oğlu) | Un, kəpək | Fəaliyyət göstərir |
| "Bərəkət-97" | Çörək məmulatları, digər məhsullar, xidmətlər | Fəaliyyət göstərir |
| Çörək bişirmə sexi | Çörək məmulatları | Fəaliyyət göstərir |
| Süd emalı sexi | Süd məhsulları istehsalı | Fəaliyyət göstərir |

Qeyd: 30-dan artıq kiçik həcmli quşçuluq, istixana sexləri vardır.

## Rayonda investisiyanın həcmi

2003-2020-ci illə müqayisədə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 36 dəfə artmış və 87,7 milyon manat olmuşdur. 2021-ci ilin yanvar-sentyabr aylarında bütün mülkiyyət növləri üzrə, o cümlədən əhalinin şəxsi vəsaiti də daxil olmaqla iqtisadiyyatın və sosial sahələrin inkişafına 69479,3 min manat investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 19,7 faiz çoxdur. İstifadə edilmiş investisiyanın 53431,1 min manatı və ya 76,9 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Ümumi investisiyanın 45957,5 min manatı və ya 66,1 faizi avtomobil yollarının tikintisi, yenidən qurulması və əsaslı təmirinə, 9213,5 min manatı və ya 13,3 faizi ev quşlarının yetişdirilməsinə, 6034,4 min manatı və ya 8,7 faizi mədənçıxarma sənayesinin inkişafına, 2500,0 manatı və ya 3,6 faizi otel tikintisinə, 1000,0 min manatı və ya 1,4 faizi çoxillik əkmələrin salınmasına, 1603,6 min manatı manatı və ya 2,3 faizi məktəb tikintisi, yenidən qurulması və əsaslı təmirinə, 832,6 min manatı və ya 1,2 faizi su təchizatının yaxşılaşdırılmasına, 1434,0 min manatı və ya 2,1 faizi əhalinin şəxsi vəsaitinə yaşayış evlərinin tikintisinə, 903,7 min manat və ya 1,3 faizi isə sair tikinti işlərinə sərf edilmişdir.

2021-ci ilin 9 ayında sahibkarlar tərəfindən ümumi dəyəri 51,15 milyon manat olan 28 investisiya layihəsi üzrə işlərin icrası davam etmiş, bu müddətdə sahibkarlar tərəfindən 14,77 milyon manatdan artıq vəsait qoyulmuş və hazırda layihələrin icrası davam edir.

"Siyəzən-Broyler" ASC tərəfindən yatırılmış investisiya hesabına quş əti istehalının ildə 15 min tondan 60 min tona çatdırılması üçün mükəmməl infrastruktur yaradılmışdır. Yeni kəsim, qarışıq yem , inkubatoriya, tullantıların təkrar emalı sexləri və quş yetişdirmək üçün əlavə sexlər tikilmişdir. Bundan əlavə 200 hektar sahədə 67 min badam, 55116 ədəd zeytun tingləri, istixana şəratində 23 min nektarin, alça, şaftalı tingləri əkilmiş və fabrikdə 100 yeni iş yeri yaradılmışdır.

Zarat kəndində 10 min tonluq taxıl anbar kompleksi və logistik mərkəzi investisiya qoyuluşu hesabına genişləndirilmiş və taxıl qəbul etmə həcmi 42 min tona çatdırılacaqdır. Burada əlavə anbarlar tikilmiş, digər kənd təsərrüfatı məhsullarının qəbuluna imkan yaradılmış və hazırda işlər davam etdirilir.

İntensiv üsulla bağların salınması istiqamətində əsaslı işlər görülmüş, bu sahəyə ayrı-ayrı fermerlər tərəfindən investisiya yatırılır. Həmin investisiya hesabına zeytun və badam bağları salınmışdır.

Yenikənd kəndi yaxılığında "FREŞ QROUP" MMC tərəfindən intensiv üsulla becərilən giləmeyvə (qaragilə) bağı salınmışdır. Qaragilə kolları Avropa ölkələrindən gətirilir və burada müasir becərmə texnologiyasına uyğun olaraq yetişdirilir. Ümumi ərazisi 28 hektardır, hazırda bunun 15,5 hektarında əkin işləri aparılmışdır. Yığılmış məhsulun saxlanması məqsədilə soyuducu kameranın tikintisi davam etdirilir.

Siyəzən şəhəri yaxınlığında intensiv üsulla becərilən 4,5 hektar sahədə giləmeyvə (malina) kolları əkilmişdir.

Cari ilin mart ayında kiçik həcmli süd emalı müəssisəsi fəaliyyətə başlamışdır.

Bir neçə mağaza və ictimai-iaşə obyekti istifadəyə verilmişdir. "OBA", "Araz" və "AL" marketlər şəbəkəsinin Siyəzən şəhərində bir neçə mağazası fəaliyyətə başlamış və bu da rayonda istehlak bazarında süni qiymət artımının qarşısını almaqla yanaşı, istehlakçıları daha ucuz mallarla təmin etməyə imkan vermişdir.

Rayon İcra Hakimiyyəti tərəfindən tərəfindən cəlb edilmiş investorlar tərəfindən tikilən 4 mərtəbəli otel binası və 5 mərtəbəli 40 mənzilli yaşayış binasında, həmçinin Rayon İcra Hakimiyyəti tərəfindən Tofiq İsmayılov küçəsində tikilən 120 yerlik uşaq bağçasında son tamamlama işləri görülür.

“Bakı-Rusiya Federasiyası ilə Dövlət Sərhədi” avtomobil yolunun 115-ci kilometrliyində 5288 $m^2$ torpaq sahəsində “Prime Estates” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən xüsusi istirahət yerinin tikintisinə başlanılmışdır.

**Siyəzən rayonu üzrə 2021-ci ilin 9 ayı ərzində özəl investisiya qoyuluşu haqqında**

**MƏLUMAT**

| s/n | İnvestisiyanı qoyan sahibkarlıq subyektinin adı (hüquqi və ya fiziki şəxs) | İnvestisiya qoyulmuş müəssisənin və digər obyektin adı, yerləşdiyi ünvan və əsas istehsal göstəriciləri | Layihənin ümumi dəyəri (milyon manat) | o cümlədən 2021-ci ildə cəlb olunmuş investisiya (milyon manat) | | | Yeni açılacaq iş yerləri | Mövcud vəziyyət (fəaliyyət göstərir; fəaliyyəti dayandırılıb (bu halda tarix: ay.il göstərilməlidir) | Qeyd (müəssisənin və digər obyektin istifadəyə verilməsi, fəaliyyətinin bərpa edilməsi, genişləndirilməsi, tikintisinin, yenidənqurulmasının və s. işlərinin davam etdirilməsi göstərilməlidir) |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | cəmi | yerli | xarici | | | |
| | **Cəmi:**<br>o cümlədən sahələr üzrə: | x | **51,15** | **14,77** | **14,77** | | 352 daimi, 100 mövsümü | x | x |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **I. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı (cəmi)** o cümlədən: | **x** | **38,2** | **11,46** | **11,46** | | **245 daimi, 100 mövsümü** | | |
| 1 | Səmədov Azər Şahverd ioğlu | İri taxılçılıq təsərrüfatı, Yenikənd kəndi, ərazisi 240 ha, 170 hektar taxıl əkilmiş, 7 hektar badam bağı, 15 hektar dən üçün qarğıdalı əkilmişdir. | 0,5 | 0,4 | 0,4 | - | 6 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** 1 ədəd taxılbiçən kombayn, 2 ədəd traktor, zəruri digər aqreqatlar, 240 kv.m emalatxana. |
| 2 | “T.MK firması” MMC | İri taxılçılıq təsərrüfatı,Yenikənd kəndi, 405 hektar buğda, 77 hektar arpa əkilmişdir. | 0,6 | 0,3 | 0,3 | | 6 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** 2 ədəd traktor, zəruri digər aqreqatlar alınmışdır. |
| 3 | “FREŞ QROUP” MMC | İntensiv üsulla becərilən giləmeyvə (qaragilə) sahəsi, Yenikənd kəndi, ümumi sahə 28 ha, əkilən sahə 15,5 ha | 2,0 | 0,6 | 0,6 | - | 10 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** Əlavə giləmeyvə (qaragilə) əkilməsi üçün hazırlıq işləri görülür. Soyuducu kamera və anbar inşa olunur. |
| 4. | Mehdiyeva Yasəmən Məmməd qızı | Tərəvəzçilik təsərrüfatı, Yenikənd kəndi, ümumi sahə 12 hektar | 0,07 | 0,07 | 0,07 | - | 6 | Fəaliyyət göstərir | **İstifadəyə verilib Super İntensiv üsulla 12 hektar soğan əkilmiş və qulluq işləri aparılır.** |
| 5. | Bağırov Qafar Paşa oğlu | İntensiv üsulla salınan badam bağı, Tuğay kəndi, sahəsi 8,53 ha | 0,4 | 0,04 | 0,04 | - | 6 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** |
| 6. | Hüseynli Tural Rafiq oğlu, | İntensiv üsullasalınanbadambağı, BalacaHəmyə kəndi, sahəsi4,9 ha | 0,2 | 0,02 | 0,02 | - | 4 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** |
| 7 | “Həsənağa” kəndli fermer təsərrüfatı | İntensiv üsulla salınan badambağı, Balaca Həmyə kəndi, sahəsi 21 ha | 0,1 | 0,05 | 0,05 | - | 8 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** |
| 8. | Hüseynov Pərviz Mehdi oğlu | İntensiv üsulla salınan badambağı, Balaca Həmyə kəndi, sahəsi 4,9 ha | 0,2 | 0,02 | 0,02 | - | 3 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** |
| 9. | Hüseynova Şükufə Əli qızı | Əncir bağı, Böyük Həmyə kəndi ,sahəsi 3,5 ha | 0,03 | 0,02 | 0,02 | - | 3 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** |
| 10 | “AXSİS SERVİSE” MMC | İntensiv üsulla salınan badambağı, Zarat kəndi, sahəsi 5,35 ha | 0,1 | 0,02 | 0,02 | - | 3 | Fəaliyyətgöstərir | **İstifadəyə verilib** |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 11. | Bayramova Səmayə Veys qızı | İntensiv üsulla salınan meyvəbağı, Qozağacı kəndi, 5 hektar heyva, 1 hektar xurma, 0,5 hektar qarışıq meyvə | 0,2 | 0,02 | 0,02 | - | 3 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** |
| 12. | Əsgərov Rauf Fərha doğlu | İntensiv üsulla becərilən giləmeyvə(malina) sahəsi, Eynibulaq kəndi, sahəsi 4,5 ha, | 0,5 | 0,2 | 0,2 | - | 8 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** |
| 13. | "AQROLUX-CN" MMC | Aqropark, Zarat kəndi, ərazisi 1350 ha, 2000 $m^2$ sahəsi olan yem qəbulu anbarı, ofis binası, laboratoriya, 1000 başlıq südçülük kompleksinin inşası nəzərdə tutulmuşdur. İllik istehsal gücü 500 ton süd, 50 tonət | 19,00 | **-** | **-** | - | 59 daimi, 100 mövsüm ü | Fəaliyyət göstərmir | **İstifadəyə verilməyib.** Tikinti işlərinə başlanılmayıb |
| 14. | " Siyəzən Broyler" ASC | İri qüşçuluq təsərrüfatı, Beşdam inzibati ərazi dairəsi, İldə 45 000 ton quş əti. | **12,00** | 9,2 | 9,2 | **-** | **100** | Fəaliyyət göstərir | **İstifadəyə verilib** Yeni kəsim, yem sexi, inkubatoriya, tullantıların təkrar emalı sexi və quş yetişdirmək üçün əlavə sexlər tikilmişdir. 110 hektar badam, 90 hektar zeytunbağı salınmışdır. İstixana şəraitində 4,96 hektar nektarin, 4,19 hektar alça, 4,33 hektar şaftalı, 4,14 hektar ərik bağı salınmışdır. |
| 15. | Qasımov Elsevər Əmirşah oğlu | Quşçuluq və tərəvəzçilik təsərrüfatı, Yenikənd kəndi, İldə 500 ton quş əti, 200 ton tərəvəz məhsulu | 0,8 | **0,2** | **0,2** | | 10 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** Quş yetişdirmək üçün hər birii 18 min ədəd quş yerləşən 4 sex tikilib istifadəyə verilib, 0,9 hektar ərazidə tərəvəz yetişdirmək üçün müasir istixananın tikilib itifadəyə verilib. Tərəvəz əkilmişdir. |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 16. | İsmayılov Rəhman Qəşəm oğlu | İstixana şəraitində tərəvəz istehsalı, Siyəzən şəhəri, Sahəsi 2,0 hektar, İldə 400 ton , | 1,5 | **0,3** | **0,3** | | 10 | Fəaliyyət göstərir | **İstifadəyə verilib** Sahəsi 2,0 hektar olan köhnə istixana sökülərək yerində müasir istixana quraşdırılmışdır. Tərəvəz əkilmişdir. |
| | **II. Sənaye (cəmi)** | **x** | **0,25** | **0,2** | **0,2** | **-** | **3** | **x** | **x** |
| 1. | Məmmədov İlham Sərxan oğlu | Kiçik həcmli süd emalı müəssisəsi, Siyəzən şəhəri | 0,25 | 0,2 | 0,2 | - | 3 | Fəaliyyət göstərir | İstifadəyə verilib. Əvvəllər quş yetişdirmək üçün işlədilən sexdə yenidənqurma işləri aparılmış və müvafiq avadanlıqlar quraşdırılmışdır. |
| | **III. Energetika (cəmi)** o cümlədən: | **x** | | | | | | **x** | **x** |
| | **IV. Tikinti (cəmi)** | **x** | **3,1** | **0,6** | **0,6** | | **5** | **x** | **x** |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | RİH-in daxili imkanları hesabına | Yeniyetmə və Gənclərin Fiziki Hazırlıq Mərkəzi, Siyəzən şəhəri Babək küçəsi, sahəsi 0,48 | 1,1 | 0,1 | 0,1 | - | 5 | **Tikinti işləri davam edir** | İstifadəyə verilməyib. Mərkəzdə açıq hava üçün idman (workout) qurğuları, 40x60 ölçüsündə mini futbol meydançası, 9x18 voleybol meydançası, örtülü idman zalı soyunub-geyinmə və digər təyinatlı otaqlar, 300 yerlik tribuna tikilməsi nəzərdə tutulmuşdur. |
| **2** | “Skyscraper Construction” MMC | 40 mənzilli, 5 mərtəbəli yaşaış binası, Siyəzən şəhəri Tofiq İsmayılov küçəsi | 2,0 | 0,5 | 0,5 | | - | Son tamamlama işləri görülür. | **İstifadəyə verilməyib** |
| | **V. Ticarət (cəmi)** | **x** | **0,9** | **0,47** | **0,47** | | **19** | **x** | **x** |
| **1** | Çıraqov Tofiq Məcid oğlu | Mağaza, kafe, Siyəzən şəhəri Heydər Əliyev küçəsi, tikintialtı sahə 431 $m^2$ | 0,2 | - | - | - | 5 | Son tamamlama işləri görülür. | **İstifadəyə verilməyib.** |
| **2** | Əzimov Cahangir Əminulla oğlu | Mağaza, Siyəzən şəhəri Məcnun Zəkiyev küçəsi, tikintialtı sahə 427 $m^2$ | 0,3 | 0,3 | 0,3 | - | 5 | Son tamamlama işləri görülür. | **İstifadəyə verilməyib.** |
| **3** | Hacıyev Elşən Fərəc oğlu | Mağaza, Siyəzən şəhəri Heydər Əliyev küçəsi, tikintialtı sahəsi 80 $m^2$ | 0,05 | 0,03 | 0,03 | - | 2 | Tikinti işləri görülür | **İstifadəyə verilməyib.** |
| **4** | Cabbarova İradə Ağayar qızı | Mağaza, Siyəzən şəhəri Heydər Əliyev küçəsi, tikintialtı sahə 578 $m^2$ | 0,3 | 0,1 | 0,1 | - | 5 | Tikinti işləri görülür | **İstifadəyə verilməyib.** |
| **5** | İsmayılov Əlsurət İbrahim oğlu | Mağaza, Siyəzən şəhəri T.İsmayılov küçəsi 328, tikintialtı sahə 159,5 $m^2$ | 0,05 | 0,04 | 0,04 | - | 2 | Tikinti işləri görülür | **İstifadəyə verilməyib.** |
| | **VI. Nəqliyyat (cəmi)** | **x** | | | | | | **x** | **x** |
| | **VII.Telekommunikasiya və poçt (cəmi)** | **x** | | | | | | **x** | **x** |
| | **VIII. Maliyyə və bank (cəmi)** | **x** | | | | | | **x** | **x** |
| | **IX. Turizm (cəmi)** | **x** | **4,5** | **0,54** | **0,54** | | **20** | **x** | **x** |
| **1.** | Musayev Məhəmməd Musa oğlu | 4 mərtəbəli otel binası, Siyəzən şəhəri Babək küçəsi, sahəsi 0,15 ha | 2,5 | 0,5 | 0,5 | | 10 | Son tamamlama işləri görülür. | İstifadəyə verilməyib. |
| **2.** | “Prime Estates” Məhdud Məsuliyyətli Cəmiyyəti | Bakı-Rusiya Federasiyası ilə Dövlət Sərhədi” avtomobil yolunun 115-ci kilometrliyində xüsusi istirahət yeri | 2,0 | 0,04 | 0,04 | | 10 | Tikinti işlərinə başlanılmışdır. | İstifadəyə verilməyib. |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **X. Digər xidmət sahələri (cəmi)** | **x** | **4,2** | **1,5** | **1,5** | **-** | **60** | **x** | **x** |
| 1. | Qardaşov Vüqar Saday oğlu | Taxıl terminalı, Siyəzən rayonu Zarat kəndi, Tutumu 42 000 ton, | 2,0 | 1,0 | 1,0 | - | 45 | Son tamamlama işləri görülür. | **İstifadəyə verilib.** Taxıl terminalı 10 000 tonluq olub, investisiya qoyuluşu hesabına genişləndirilir və taxıl qəbul etmə həcmin artırılaraq 42000 tona çatdırılacaqdır. Əlavə anbarlar tikilir, genişləndirilir. Bitki yağı qəul edilməsi üçün infrastruktur yaradılır. |
| 2 | Məmmədov İlham Almas oğlu | Geniş profilli Loqistika mərkəzi, Siyəzən şəhəri Tikintialtı sahəsi 2500 $m^2$ | 2,2 | 0,5 | 0,5 | - | 15 | | |

Qeyd: Kiçik həcmli (dəyəri 15 000 manat və ondan az olan) layihələr cədvəldə nəzərə alınmamışdır.

## Yol nəqliyyat sisteminin inkişafına dair həyata keçiriləcək tədbirlər

Rayonun kəndlərarası ümumi uzunluğu 53,8 kilometr olan 5 avtomobil yolunun tikintisi çərçivəsində Eynibulaq, Sədan, Dağquşçu, Daşlı Çalğan, Orta Çalğan, Qozağacı, Məşrif, Qalaaltı, Yenikənd, Tuğay, Böyük Həmyə və Balaca Həmyə kəndlərini və Gilgilçay qəbəsini birləşdirən kəndlərarası avtomobil yollarının tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Hazırda rayon ərazisində ödənişli olması nəzərdə tutulan yeni Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun tikintisi aparılır.

Azərbaycan Respublikası Prezidentinin 8 sentyabr 2014-cü il tarixli Sərəncamı ilə ümumi uzunluğu 24,8 kilometr olan "Siyəzən-Böyük Həmyə-Balaca Həmyə-Çandahar" avtomobil yolunun tikintisinə Prezidentin ehtiyat fondundan Rayon İcra Hakimiyyətinə 3,0 milyon manat vəsait ayrılmış və işlərə başlanılmışdır. Sonrakı müddətdə yolun tikintisi Rayon İcra Hakimiyyətindən alınaraq "Azəravtoyol" ASC-yə verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 31 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə "Siyəzən-Böyük Həmyə-Balaca Həmyə-Çandahar" avtomobil yolunun tikintisinə "Avtomobil Yolları" Məqsədli Büdcə Fondundan "Azəravtoyol" ASC-nə 7,1 milyon manat vəsait ayrılmışdır. Yolun tikintisi dayandırılmışdır.

Siyəzən şəhərində ümumi uzunluğu 95,5 kilometr olan 117 küçə vardır. Bunun 42.9 kilometri asfalt, 44.8 kilometri çınqıl, 7.8 kilometri torpaq yoldur.

2020-ci ildə 4 kilometr yola asfalt, 6 kilometr yola çınqıl-qırmadaş verilmişdir. 2021-ci ildə 4,5 kilometrə asfalt, 6 kilometr yola çınqıl-qırmadaş verilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə kəndlərdə bələdiyyələr tərəfindən kənddaxili yolların təmiri davam etdiriləcəkdir.

“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda Siyəzən rayonunun sosial-iqtisadi inkişafı üçün nəzərdə tutulmuş tədbirlər çərçivəsində kəndlərarası avtomobil yollarının yenidən qurulması və əsaslı təmirinin davam etdirilməsi tədbirləri sırasında “Siyəzən-Dağ Quşçu-Ərziküş avtomobil yolu"nun tikintisi nəzərdə tutulmuş, lakin işlərə başlanılmamışdır.

**Siyəzən rayonu üzrə yenidən qurulması vacib olan rayondaxili kəndlərarası avtomobil yollarına dair məlumat**

| S/s | Layihənin adı | Uzunluq, km | Əhali, min nəfər | Yaşayış məntəqəsi | Qeyd |
|---|---|---|---|---|---|
| 1. | “Siyəzən-Dağ Quşçu-Ərziküş” kəndlərarası avtomobil yolu | 27 | 1046 | Dağquşçu, Əlməkolu, Yuxarı Ələz, Qaragöz, Hacışəkər, Ərziküş, Yanıqləz, Künövşə, Köhnə Quşçu | “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulmuşdur. |
| 2. | “Y-53-06; R-64(8 km) - Nardaran-Dərəzarat” kənd avtomobil yolu | 17 | 906 | Nardaran, Dərəzarat, Beşdam, Siyəzən | |
| 3. | “Y-53-02; R-61(1 km)-Qalaşıxı” kənd avtomobil yolu | 3 | 1905 | Zarat, Qalaşıxı, | |
| 4. | “Y-53-04; R-61(4 km) - Beşdam” kənd avtomobil | 4,0 | 906 | Nardaran, | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | yolu | | | Dərəzarat, Beşdam, Siyəzən | |
| 5. | "Y-53-05; R-61(6 km) – Siyəzən kənd" kənd avtomobil yolu | 4,0 | 906 | Nardaran, Dərəzarat, Beşdam, Siyəzən | |
| 6. | "Y-53-10 (12 km) – Sağolcan-Çarxana" kənd avtomobil yolu | 18 | 82 | Sağolcan, Çarxana | |
| 7. | "Y-53-01; M-1(84 km) -Zarat" kənd avtomobil yolu | 2,0 | 1972 | Zarat, Qalaşıxı, Çəndəhar | |

**Abadlıq-quruculuq işlərinin həyata keçirilməsinə dair tədbirlər**

Əvvəlki illərdə Siyəzən şəhərində Heydər Əliyev Mərkəzi yaradılmış, Ümummilli Liderin adını daşıyan "Heydər Əliyev Seyrəngahı" adlı park salınmış və Ulu öndərin abidəsi ucaldılmışdır.

Bu illər ərzində Regional Müalicə Diaqnostika Mərkəzi, Bayraq Meydanı, Gənclər Mərkəzi, Uşaq İncəsənət Məktəbi,RİH, YAP, Aqrar İnkişaf Mərkəzi, Suvarma Sistemləri İdarəsi, Elektrik Şəbəkəsi, Telekommunikasiya Qovşağı və Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üçün yeni inzibati binalar tikilmiş, Poliklinika binası əsaslı təmir edilmiş, 35/6 kV-luq 2x10 MVA-lıq elektrik yarımstansiyası tikilmişdir.

Siyəzən şəhərində dördmərtəbəli 960 yerlik məktəb binası tikilərək istifadəyə verilmiş, 40 mənzilli beşmərtəbəli yaşayış binasının, dördmərtəbəli otel binasının, Yeniyetmə və gənclərin fiziki hazırlıq mərkəzinin, istifadəyə verilmək ərəfəsində olan 120 yerlik körpələr evi-uşaq bağçasının tikintisində işlər davam edir.

Siyəzən rayonunda şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi üçün "Şəhidlər bulağı" kompleksi və rayon ictimaiyyətinin iştirakı ilə açılışı olmuş "Qlobus" monumental abidəsi tikilib istifadəyə verilmişdir. Bu günlərdə qələbəmizin rəmzinə çevrilmiş "Dəmir yumruq" abidəsinin təməlqoyma mərasimi keçirilmiş və hazırda tikinti işləri davam edir. Dərin razılıq hissi ilə bildiririk ki, bu istiqamətdə şəhid ailələrinin üzvləri də müxtəlif layihələrin həyata keçirilməsinə təşəbbüslər göstərmiş və bu işlərdə aktiv iştirak edirlər. Məhz onlar tərəfindən "Şəhid bulağı" tikilmiş və istifadəyə verilmişdir.

Siyəzən şəhərində "Abad məhəllə" layihəsi çərçivəsində yeni mini-parkların salınması, söhbətgahların tikilməsi, işıqlandırma sistemlərinin yaradılması, digər abadlıq işlərinin görülməsi, ağac və gül kollarının əkilməsi davam etdiriləcəkdir.

**Rabitə və informasiya texnologiyalarının inkişafı**

2021-ci ilin yanvar-sentyabr aylarında rayonda rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 497 min manatlıq rabitə xidməti göstərilmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz çoxdur. Siyəzən şəhərində və kəndlərdə yeni xətt şəbəkəsinin yaradılması istiqamətində tədbirlər hayata keçirilir.

Hazırda Siyəzən şəhərində “Gigabayte Passiv Optik Şəbəkə (GPON) layihəsi üzrə tikinti işləri aparılır. Yaxın günlərdə Siyəzən mərkəzi-Elektron Avtomat Telefon Stansiyasının abonentləri həmin sistemə keçiriləcəkdir. Burada boşalacaq internet avadanlıqların kəndlərdə quraşdırılması nəzərdə tutulmuşdur. Bununla da Siyəzən şəhərində və kəndlərdə müraciət edən vətəndaşların evləri internetlə təmin olunacaqdır.

**Elektrik enerjisi təminatının yaxşılaşdırılması**

Əhalinin enerji daçıyıcıları ilə fasiləsiz təminatı məqsədilə infrastruktur layihələri həyata keçirilmişdir. Rayonda Siyəzən şəhəri də daxil olmaqla 26 yaşayış məntəqəsinin elektrik təsərrüfatı yenidən qurulmuş və işlər davam etdirilir.

Qalan kəndlərdə elektrik təsərrüfatının yenidən qurulması işlərinin davam etdirilməsi, 10 kv-luq Çınqıl-zavod hava veriliş xəttinin tam təmiri və tələb olunan yerlərdə yağ açarının quraşdırılması və digər işlərin görülməsi təmin olunacaqdır.

**Təbi qaz təchizatının yaxşılaşdırılması**

Rayonda 34 yaşayış məntəqəsindən 16-sı qazlaşdırılmışdır. Məşrif, Qozağacı və Qalaaltı kəndləri qazlaşdırılmış, şəhər və kəndlərdə yeni yaşayış massivlərində evlərə qaz xətti çəkilmişdir. Hazırda yaşayış məntəqələrinin 47 faizi, ev təsərrüfatlarının 94,4 faizi qazlaşdırılmışdır. Siyəzən şəhərində, Yenikənd və Eynibulaq kəndlərində yeni yaşayış massivlərində tikilmiş evlərə qaz xətləri çəkilir.

Lakin rayonun Daşlı-Calğan, Orta Calğan, Dağquşçu kimi, hər birində yüzə yaxın ev olan dağ kəndlərində əhali bu gün də təbii qazdan istifadə edə bilmir. Bu kəndlər “Azəriqaz” İstehsalat Birliyinin qeydiyyatında qazlaşmayan yaşayış məntəqələri kimi qeydiyyatdadır. Dağ Quşçu kəndi texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış mənqəsi hesab edildiyindən həmin kəndin alternativ (bioqaz, odun və sair) enerji növlərindən istifadə edilməsi təklifi verilmişdir. Rayonun Zarat, Balaca Həmyə kəndləri qazlaşdırılmış hesab olunsa da bu kəndlərin hər birində əlliyə yaxın, Siyəzən şəhərində isə yeni salınmış evlərdə yüzə yaxın evin qazlaşmasına ehtiyac vardır.

**İçməli su və kanalizasiya sisteminin yaxşılaşdırılması**

Siyəzən şəhərinin su-kanalizasiya sistemi yenidən qurulmuşdur. Belə ki, Azərbaycan Hökuməti və Dünya Bankı arasında bağlanmış müqavilə şərtlərinə əsasən 2010-cu ildən başlayaraq Siyəzən şəhərində su-kanalizasiya sistemlərinin yenidən qurulması işlərinə başlanmış və hazırda Siyəzən şəhərində əhali və iqtisadiyyatın digər sahələri fasiləsiz içməli su ilə təchiz olunmuşdur. Xidmət ərazisində 2117 ədəd kanalizasiya quyusu qoyulmuş, 1000 və 3000 kubmetrlik su anbarları, 1 ədəd nasosxana binası tikilmiş və istifadəyə verilmişdir.

Şəhər daxilində fəaliyyət göstərən qeyri-əhali obyektlərinin əksəriyyətinə yeni su və kanalizasiya çıxışları verilmişdir. 279 ədəd yerüstü, 51 ədəd yeraltı yanğın hidrantları qoyulmuşdur. Şəhərin çirkab sularının axıdılması üçün "Təmizləyici Qurğu" tikilmiş və istifadəyə verilmişdir.

Eynibulaq və Sədan kəndlərinə su verilmiş, Zarat, Yenikənd və Tuğay kəndlərində köhnə su xətlərinin bir hissəsinin yenisi ilə əvəz olunması işləri davam edir.

Rayonun dağlıq ərazilərində yerləşən Məşrif, Qozağacı, Qalaaltı, Daşlı Çalğan, Orta Çalğan, Dağ Quşçu və Yuxarı Ələz kəndlərində bulaqların suyunun quruması və yay aylarında mövcud çaylarda suyun olmaması müşahidə olunur ki, bu da əhalinin içməli su ilə təminatında ciddi çətinliklər yaradır.

Bununla əlaqədar həmin kənd sakinləri tərəfindən Rayon İcra Hakimiyyətinə içməli və texniki su təminatı ilə bağlı çoxsaylı müraciətlər daxil olur. Rayon İcra Hakimiyyəti daxili imkanlar hesabına Məşrif, Daşlı Çalğan və Qozağacı kəndlərində dərinliyi 50 metr olan su quyuları qazdırmış və quyular istifadəyə verilmişdir. Digər kəndlərdə bu işin davam etdirilməsinə ehtiyac vardır.

## İstilik təchizatının yaxşılaşdırılması

Ötən illərdə Siyəzən şəhərində çoxmərtəbəli yaşayış binalarının istilik təchizatının yaxşılaşdırılması məqsədilə işlərə başlanılmışdır. Bu məqsədlə 1 ədəd qazanxana tikilmiş və 2 ədəd beşmərtəbəli binaya daşıyıcı xətlər çəkilmişdir. Sonrakı müddətdə əhali maraq göstərmədiyi üçün bu işlər yarımçıq saxlanılmışdır.

Əhali ilə maarifləndirmə işləri aparılmaqla həmin işlərin davam etdirilməsi.

## Meliorasiya və irriqasiya tədbirlərinin davam etdirilməsi

2015-ci ildən başlayaraq Siyəzən rayonu ərazisində "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi üzrə işlərə başlanmış və 2018-ci ildə işlər başa çatmışdır. Layihə çərçivəsində 6413,59 hektar torpaq sahəsində suvarma sistemlərinin qurulması işləri başa çatdırılmış, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır.

Hər il rayonun torpaqlarının su təminatının yaxşılaşdırılması üçün meliorasiya-irriqasiya işləri davam etdirilmiş, suvarma kanallarında əsaslı təmir işləri aparılmış, kanalların lildən təmizlənməsi işləri davam etdirilmişdir.

Rayonun torpaqlarının su təminatının yaxşılaşdırılması üçün 214,6 kilometr uzunluğunda kanalın lildən təmizlənməsi, torpaq məcralı kanalların beton üzlüyə alınması, mövcud hidrotexniki qurğuların təmir edilməsi, Gilgilçay və Ataçay çaylarında çay məcrasının tənzimlənməsi işlərinin görülməsi davam etdiriləcəkdir.

## Təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması

Ötən müddətdə 15 məktəb binası tikilmiş, 2-si əsaslı təmir edilmiş, 3 modul tipli məktəb quraşdırılmışdır.

Siyəzən şəhər 4 saylı,Yenikənd, Zarat kənd tam orta məktəblərinin və Siyəzən şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyanın əsaslı təmiri "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulsa da işlərə başlanılmamışdır.

Bundan əlavə qəzalı vəziyyətdə olan 24 şagird yerlik Qalaşıxı kənd ibtidai və 24 şagird yerlik Orta Həmyə kənd ibtidai məktəbləri üçün modul tipli yeni binaların quraşdırılması zəruri hesab edilir.

Siyəzən şəhərində əhalinin sayı xeyli artmış və şəhərdə yeni məktəbin tikilməsinə ehtiyac yaranmışdır. Şəhərin şimal hissəsində yeni salınmış yaşayış massivlərində məktəb olmadığına görə həmin ərazidə yaşayan 500-ə yaxın uşaq 2 kilometrdən artıq məsafə qət edərək 1966-cı ildə istifadəyə verilmiş Siyəzən şəhər 1 saylı tam orta məktəbinə gedərək təhsil alırlar. Həmin ərazidə məktəb tikintisi üçün 1 hektar torpaq sahəsi ayrılmışdır. Yeni yaşayış masivinin mövcud məktəblərdən uzaqda yerləşməsi və valideynlərin çoxsaylı müraciəti nəzərə alınaraq həmin ərazidə 480 şagird yerlik yeni məktəbin tikitntisi zəruri hesab edilir.

Hazırda Siyəzən şəhərində ümumilikdə 430 yerlik olmaqla 5 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Şəhərdə 2573 nəfər 6 yaşadək olan uşağın yalnız 16%-i məktəbəqədər təhsilə cəlb olunmuşdur. Bu bağçaların bəziləri istismara yararsızdır. 1990-cı ildə tikilb istifadəyə verilmiş 75 yerlik 4 saylı və 1987-ci ildə tikilib istifadəyə verilmiş 130 yerlik 5 saylı körpələr evi-uşaq bağçalarının əsaslı təmirinə ehtiyac vardır.

Rayonun Yenikənd kəndində 6 yaşadək uşaqların sayının 301 nəfər olmasını nəzərə alaraq əvvəllər bu kənddə əvvəllər fəaliyyət göstərmiş 90 yerlik uşaq bağçasının bərpasına ehtiyac vardır.

Məktəblərin istilik təchizatının yaxşılaşdırılmasına baxmayaraq bir sıra məktəblərin qazlaşdırılması indiyədək reallaşmayıb.

## Səhiyyə müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması

Ötən illər ərzində Regional Müalicə Diaqnostika Mərkəzi Xəstəxanası tikilmiş və Poliklinika binası əsaslı təmir edilərək lazımı avadanlıqlarla təchiz edilmişdir.

Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsinin yerləşdiyi binada əsaslı təmirə ehtiyac vardır.

Yenikənd, Böyük Həmyə, Balaca Həmyə, Zarat kənd tibb məntəqələri uyğunlaşdırılmış binalarda, Məşrif həkim ambulatoriyası Məşrif kənd tam orta məktəbin binasında, Gilgilçay və Eynibulaq tibb məntəqələri Gilgilçay qəsəbə və Eynibulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin binalarında, Beşdam tibb məntəqəsi Beşdam bələdiyyəsinin binasında, Tuğay və Qozağacı tibb məntəqələri xüsusi evlərdə fəaliyyət göstərir. Sədan, Dağ Quşçu, Daşlı Çalğan, Yanıq Ələz tibb məntəqələri isə münasib bina və ixtisaslı kadr olmadığından fəaliyyət göstərmirlər. Tibb məntəqələri üçün modul tipli binaların quraşdırılması zəruri hesab edilir.

## Mədəniyyət müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması

Əvvəlki illərdə Heydər Əliyev Mərkəzi, Uşaq İncəsənət Məktəbi tikilmiş və Mərkəzi Kitabxana yeni tikilmiş binaya köçürülmüşdür. Ötən müddətdə Heydər Əliyev Mərkəzinin fasadının və arxa tərəfinin müəyyən yerlərində cari təmir işlərinə ehtiyac yaranmışdır. Heydər Əliyev Mərkəzinin fasadının və Uşaq İncəsənət Məktəbində təmir işlərinə ehtiyac vardır.

Rayonun Yenikənd, Sədan, Eynibulaq kəndlərində və Gilgilçay qəsəbəsində kitabxanalar uyğunlaşdırılmış binalarda yerləşir. Həmin binalar ötən əsrin 50-60-70-ci illərində tikilmiş və artıq istismar müddətini başa vurmuşdur. Bu kəndlərdə kitabxanalar üçün modul tipli binaların quraşdırılması məqsədəmüvafiqdir. Tuğay, Dağ Quşçu, Zarat, Qozağacı, Məşrif, Balaca Həmyə kənlərində kitabxanaların yerləşdiyi binalarda əsaslı təmir işləri aparılmamışdır. Həmin binaların əsaslı təmir və müasir inventar-avadanlıqlarla təmin olunması zəruri hesab edilir.

Rayonun Yenikənd, Zarat, Eynibulaq kənd klubları uyğunlaşdırılmış binalarda yerləşirlər. Məşrif kənd klubunun binası qəzalı vəziyyətdədir. Bu klublar üçün yeni modul tipli binaların quraşdırılması, Böyük Həmyə və Balaca Həmyə kənd klub binalarının əsaslı təmir olunması zəruri hesab edilir.

Siyəzən şəhərində “Tarix Diyarşünaslıq Muzeyi”nin tikilməsi zəruri hesab edilir. Hazırda həm ölkəmizin, həm də rayonumuzun tarixini əks etdirən bir çox eksponatlar var ki, həmin eksponatlar müxtəlif yerlərdə saxlanılır. Muzey tikildikdən sonra həmin eksponatlar burada toplanacaq və ziyarətçilərin dərin marağına səbəb olacaq. Bu eksponatlar turistlər üçün də böyük maraq doğuracaq, onlara ölkəmizin tarixi ilə daha yaxından tanış olmaq imkanı yaradacaqdır. Həmçinin muzey bu bölgənin tarixinin müxtəlif dövrlərini araşdırmaq üçün mühüm əhəmiyyətə malik olacaqdır. Qədim tarixi və geniş turizm potensialı olan Siyəzən rayonunda belə muzeyin yaradılması olduqca zəruridir.

## İdman və gənclərlə iş sahəsində

Yüksək idman nailiyyətləri ilə seçilən Siyəzən rayonunda idmanın inkişafına və idmançılara böyük diqqət göstərilir. Bununla yanaşı rayonda müasir tələblərə cavab verən idman zalları və digər idman qurğuları tikilməmişdir. Rayonda idmanın inkişaf etdirilməsi və kütləviliyinin artırılması, rayon gənclərinin idmana həvəsləndirilməsi, onların sağlam həyat tərzi sürmələri, potensiallarının üzə çıxarılması və idmanla sərbəst məşğul olmaları üçün müasir tələblərə cavab verən idman sağlamlıq mərkəzinin tikintisi zəruri hesab edilir.

Siyəzən şəhərində 2014-cü ildə Alternativ və bərpa olunan enerji mənbələrini tətbiq etməklə idman zalının tikintisinə başlanılmış, 2017-ci ildən tikinti işləri dayanmışdır. İdman zalının tikintisinin davam etdirilməsinə və istifadəyə verilməsinə nail olmaq.

## İstehsal, emal və xidmət müəssisələrinin fəaliyyətinin genişləndirilməsi sahəsində

Ötən müddət ərzində rayon tutumu 42 min ton olan Loqistika (taxıl anbarı), “Aqroservis” ASC-nin rayon filialı, “Siyəzən-Broyler” ASC, “MMZ” MMC, “Polimer Sənaye Parkı” MMC, “Caspian Coast Winery & Vineyards” MMC, Kərpic sexi, 7 ədəd çınqıl-qırmadaş sexi, beton zavodu və digər bir çox müəssisələr yaradılmışdır. Rayonun Yenikənd, Tuğay, Eynibulaq, Böyük Həmyə, Balaca Həmyə, Zarat və Sədan kəndlərində meyvə bağları salınmışdır.

Rayonumuzda kənd təsərrüfatının ənənəvi inkişaf etmiş sahələrindən biri də üzümçülük olmuşdur. Üzümçülükdə də məhsul istehsalında müsbət artım müşahidə olunmaqdadır. Ötən il 7 hektar yeni üzüm bağı salınmış, üzüm bağlarının sahəsi 51 hektara çatmışdır. Üzüm istehsalı ilbəil artır.

Cənab Prezidentin “Azərbaycan Respublikası Regionların 2014-2018-ci illər sosial-iqtisadi inkişafı”nın yekunları ilə bağlı 2019–cu ilin əvvəllərində keçirilmiş konfransdakı nitqində ölkədə kənd təsərrüfatının digər sahələri ilə yanaşı bağçılıqda badam, qoz və zeytun bağlarının salınması vəzifələrini qeyd etmişdir.

Rayonumuzun iqlim şəraiti və əlverişli coğrafi mühiti badam və zeytun bağlarının əkilib yetişdirilməsinə imkan verir. Hazırda rayonda 178 hektar badam, 224 hektar zeytun bağı mövcuddur. Qarşıdakı illərdə badam bağlarının həcmini 250 hektara, zeytun bağlarının həcmini isə 300 hektara çatdıra bilərik.

## Rayonun qəsəbə və kəndlərində infrastrukturun vəziyyəti

## Gilgilçay qəsəbə iəd üzrə nümayəndəlik

Gilgilçay qəsəbə iəd üzrə nümayəndəliyə Gilgilçay qəsəbəsi daxildir.
“Siyəzən-Gilgilçay” avtomobil yolu yenidən qurulmuşdur.
Gilgilçay qəsəbəsinin elektrik təsərrüfatı tam yenilənmiş, qəsəbəni qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur.
Gilgilçay qəsəbəsi qazlaşdırılmışdır.
Qəsəbədə telefon var və bütün evlərə internet verilməsi imkanın yaradılması üçün işlərə başlanılmışdır.
“Samur-Abşeron suvarma sisteminin yenidən qurulması”layihəsi çərçivəsində qəsəbəyə suvarma suyu verilmişdir.
Gilgilçay qəsəbə tam orta məktəbi yenidən tikilmişdir.
Gilgilçay qəsəbə iəd üzrə nümayəndəliyin inzibati binasının əsaslı təmir olunması zəruridir.
Gilgilçay qəsəbəsində kitabxana uyğunlaşdırılmış binada yerləşir.
Gilgilçay tibb məntəqəsi Gilgilçay qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binasında fəaliyyət göstərir
Gilgilçay qəsəbəsində mədəniyyət və səhiyyə xidmətləri üçün modul tipli binaların quraşdırılması məqsədəmüvafiqdir.

## Yenikənd kənd iəd üzrə nümayəndəlik

Yenikənd kənd iəd üzrə nümayəndəliyə Yenikənd, Tuğay və Kolanı kəndləri daxildir.
Yenikənd və Tuğay kəndlərinin kəndlər arası avtomobil yolu yenidən qurulmuşdur.
Yenikənd, Tuğay və Kolanı kəndlərinin elektrik təsərrüfatı tam yenilənmiş, kəndləri qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur.
Yenikənd və Tuğay kəndləri 100 faiz qazlaşdırılmışdır.
Yenikənd kəndində içməli su təminatının yaxşılaşdırılması istiqamətində işlərə başlanılmış və işlər davam edir.
Tuğay kəndində içməli su xəttinin (daşıyıcı kəmər) təmiri ilə əlaqədar 600 metr boru gətirilmişdir.
Kəndlərdə telefon var və bütün evlərə internet verilməsi imkanın yaradılması üçün işlərə başlanılmışdır.
“Samur-Abşeron suvarma sisteminin yenidən qurulması”layihəsi çərçivəsində yeni suvarılan torpaq sahələrinə suvarma suyu verilmiş, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır.
Yenikənd kənd tam orta məktəbinin əsaslı təmiri “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulsa da işlərə başlanılmamışdır.
Yenikənd kənd iəd üzrə nümayəndəliyin inzibati binasının əsaslı təmir olunması zəruridir.
Yenikənd kəndində klub uyğunlaşdırılmış binada yerləşir.
Yenikənd kəndində kitabxana uyğunlaşdırılmış binada yerləşir.
Yenikənd kənd tibb məntəqəsi uyğunlaşdırılmış binada, Tuğay tibb məntəqəsi xüsusi evdə fəaliyyət göstərir
Yenikənd və Tuğay kəndlərində mədəniyyət və səhiyyə xidmətləri üçün modul tipli binaların quraşdırılması məqsədəmüvafiqdir.
3600 nəfər əhalisi əhali olan Yenikənd kəndində 1-5 yaşlı uşaqların sayı 301 nəfərdir. 1992-ci ilə kimi Yenikənd kəndində 50 yerlik

uşaq bağçası fəaliyyət göstərmiş, həmin vaxtdan fəaliyyəti dayandırılmışdır. Ötən müddətdə burada əsaslı təmir işləri aparılmamışdır.Bağçanın təmiri və fəaliyyətə başlaması zəruridir.

## Həmyə kənd iəd üzrə nümayəndəlik

Həmyə kənd iəd üzrə nümayəndəliyə Böyük Həmyə və Balaca Həmyə kəndləri daxildir.

Böyük Həmyə və Balaca Həmyə kəndlərarası avtomobil yolu yenidən qurulmuşdur.

Böyük Həmyə və Balaca Həmyə kəndlərində tam orta məktəbləri yenidən tikilmişdir.

"Siyəzən-Böyük Həmyə-Balaca Həmyə-Çandahar" avtomobil yolunun tikintisinə başlanılmış və sonradan yolun tikintisi dayandırılmışdır.

Böyük Həmyə və Balaca Həmyə kəndlərinin elektrik təsərrüfatı tam yenilənmiş, kəndləri qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur.

Böyük Həmyə və Balaca Həmyə kəndləri qazlaşdırılmışdır. Bununla yanaşı yeni yaşayış massivində tikilmiş evlərin qazlaşdırılması zəruridir.

Kəndlərdə telefon var və bütün evlərə internet verilməsi imkanın yaradılması üçün işlərə başlanılmışdır.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması"layihəsi çərçivəsində yeni suvarılan torpaq sahələrinə suvarma suyu verilmiş, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır.

Həmyə kənd iəd üzrə nümayəndəlik üçün inzibati bina tikilməsi zəruridir.

Böyük Həmyə və Balaca Həmyə kənd tibb məntəqələri uyğunlaşdırılmış binalarda fəaliyyət göstərir.

Böyük Həmyə və Balaca Həmyə klub binalarının əsaslı təmir olunması zəruridir.

Böyük Həmyə və Balaca Həmyə kəndlərində mədəniyyət və səhiyyə xidmətləri üçün modul tipli binaların quraşdırılması məqsədəmüvafiqdir.

24 şagird yerlik Böyük Həmyə kənd ibtidai məktəbi 1992-ci ildə Böyük Həmyə kəndi yaxınlığında Ermənistandan qaçqın düşmüş ailələr üçün salınmış yeni yaşayış massivində tikilmişdir. Sonrakı illərdə məktəb binasında əsaslı təmir işləri aparılmamışdır. Məktəb binası qəzalı vəziyyətdədir. Hazırda həmin yaşayış massivində əhalinin sayı artaraq 160 nəfərə çatmışdır. Əhali tərəfindən yeni məktəb binasının tikilməsi ilə bağlı çoxsaylı müraciətlər olur. Modul tipli yeni binanın quraşdırılması zəruri hesab edilir.

2350 nəfər əhalisi olan Böyük Həmyə kəndində1-5 yaşlı uşaqların sayı 304 nəfərdir. Bu kənddə uşaq bağçasının tikitntisi zəruri hesab edlir.

## Beşdam kənd iəd üzrə nümayəndəlik

Beşdam kənd iəd üzrə nümayəndəliyə Beşdam, Dərəzarat, Nardaran və Siyəzən kəndləri daxildir

Beşdam kəndində 1,2 kilometrlik giriş yoluna asfalt-beton qarışığı verilərək yol təmir edilmişdir.

Beşdam kəndində tam orta məktəbi yenidən tikilmişdir.

Beşdam, Dərəzarat, Nardaran və Siyəzən kəndlərinin elektrik təsərrüfatı tam yenilənmiş, kəndləri qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur.

Beşdam və Siyəzən kəndləri qazlaşdırılmışdır. Bununla yanaşı yeni yaşayış massivində tikilmiş evlərin qazlaşdırılması zəruridir.

Kəndlərdə telefon var və bütün evlərə internet verilməsi imkanın yaradılması üçün işlərə başlanılmışdır.

Beşdam kəndində içməli su ilə təmin olunmayan evlərə su xəttinin çəkilməsi.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması"layihəsi çərçivəsində yeni suvarılan torpaq sahələrinə suvarma suyu verilmiş, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır.

Beşdam kəndində Siyəzən istqamətində dayanacaq tikilməsi.

Beşdam kənd iəd üzrə nümayəndəlik üçün inzibati bina tikilməsi zəruridir.

Beşdam tibb məntəqəsi Beşdam bələdiyyəsinin binasında fəaliyyət göstərir. Tibb məntəqəsi üçün modul tipli binanın quraşdırılması məqsədəmüvafiqdir.

"Y-53-04; R-61(4 km)–Beşdam" kəndlərarası avtomobil yolu, "Y-53-06; R-64(8 km)-Nardaran-Dərəzarat" kəndlərarası avtomobil yolu və "Y-53-05; R-61(6 km)–Siyəzən kənd" kəndlərarası avtomobil yolu yenidən qurulmalıdır.

## Zarat kənd iəd üzrə nümayəndəlik

Zarat kənd iəd üzrə nümayəndəliyə Zarat, Qalaşıxı və Çəndəhar kəndləri daxildir

Zarat, Qalaşıxı və Çəndəhar kəndlərinin elektrik təsərrüfatı tam yenilənmiş, kəndləri qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur.

Zarat, Qalaşıxı və Çəndəhar kəndləri qazlaşdırılmışdır. Bununla yanaşı yeni yaşayış massivində tikilmiş evlərin qazlaşdırılması zəruridir.

Zarat kəndində telefon var və bütün evlərə internet verilməsi imkanın yaradılması üçün işlərə başlanılmışdır.

"Siyəzən-Böyük Həmyə-Balaca Həmyə-Çandahar" avtomobil yolunun tikintisinə başlanılmış və sonradan yolun tikintisi dayandırılmışdır.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində yeni suvarılan torpaq sahələrinə suvarma suyu verilmiş, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır.

Zarat kənd iəd üzrə nümayəndəlik üçün inzibati bina tikilməsi zəruridir.

Zarat kənd tibb məntəqəsi, kitabxana və klubu uyğunlaşdırılmış binalarda fəaliyyət göstərir. Mədəniyyət və səhiyyə xidmətləri üçün modul tipli binaların quraşdırılması məqsədəmüvafiqdir.

Zarat kənd tam orta məktəbinin əsaslı təmiri "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulsa da işlərə başlanılmamışdır.

Qalaşıxı kəndində hazırda 170 nəfər əhali yaşayır.24 şagird yerlik Qalaşıxı kənd ibtidai məktəbi uyğunlaşdırılmış binada yerləşir və əsaslı təmir işləri aparılmamışdır. Modul tipli yeni binanın quraşdırılması zəruri hesab edilir.

"Y-53-02; R-61(1 km)-Qalaşıxı" kəndlərarası avtomobil yolu, "Y-53-01; M-1(84 km)–Zarat" kəndlərarası avtomobil yolu yenidən qurulmalıdır.

## Eynibulaq kənd iəd üzrə nümayəndəlik

Eynibulaq kənd iəd üzrə nümayəndəliyə Eynibulaq kəndi daxildir.
Eynibulaq kəndinə aparan kəndlərarası avtomobil yolu yenidən qurulmuşdur.
Eynibulaq kəndinin elektrik təsərrüfatı tam yenilənmiş, kəndi qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur.
Eynibulaq kəndi 100 faiz qazlaşdırılmışdır.
Kənddə telefon var və bütün evlərə internet verilməsi imkanın yaradılması üçün işlərə başlanılmışdır.
2021-c ildə Eynibulaq kəndində su infrastrukturu yaradılmış, 173 evə sayğac qoyulmuş və su verilmişdir.
Eynibulaq kənd tam orta məktəbi yenidən tikilmişdir.
Eynibulaq kənd iəd üzrə nümayəndəlik üçün inzibati bina tikilməsi zəruridir.
"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində yeni suvarılan torpaq sahələrinə suvarma suyu verilmiş, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır.
Eynbulaq kənd tibb məntəqəsi, kitabxana və klubu uyğunlaşdırılmış binalarda fəaliyyət göstərir. Mədəniyyət və səhiyyə xidmətləri üçün modul tipli binaların quraşdırılması məqsədəmüvafiqdir.

**Sədan kənd iəd üzrə nümayəndəlik**

Sədan kənd iəd üzrə nümayəndəliyə Sədan, Müşkülqazma, Sağolcan və Çarxana kəndləri daxildir.
Sədan kəndinə aparan kəndlərarası avtomobil yolu yenidən qurulmuşdur.
Sədan kəndinin elektrik təsərrüfatı tam yenilənmiş, kəndi qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur.
Müşkülqazma kəndinə elektrik enerjisi verilməmişdir.
Sağolcan və Çarxana kəndlərinin elektrik təsərrüfatı yenilənməlidir.
Sədan kəndi qazlaşdırılmışdır. Bununla yanaşı yeni yaşayış massivində tikilmiş evlərin qazlaşdırılması zəruridir.
2021-c ildə Sədan kəndinə su xətti çəkilmiş, bunun üçün lazım olan infrastruktur yaradılmış, 148 evə sayğac qoyulmuş və su verilmişdir.
Kənddə telefon var və bütün evlərə internet verilməsi imkanın yaradılması üçün işlərə başlanılmışdır.
Sədan kənd tam orta məktəbi yenidən tikilmişdir.
"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində yeni suvarılan torpaq sahələrinə suvarma suyu verilmiş, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır.
Sədan kənd iəd üzrə nümayəndəlik üçün inzibati bina tikilməsi zəruridir.
Sədan kənd tibb məntəqəsi münasib bina və ixtisaslı kadr olmadığından fəaliyyət göstərmir. Tibb məntəqəsi üçün modul tipli binanın quraşdırılması zəruri hesab edilir.
Rayonun Sədan kəndində kitabxana uyğunlaşdırılmış binada yerləşir. Kitabxana üçün üçün modul tipli binanın quraşdırılması zəruri hesab edilir.
"Y-53-10 (12 km)–Sağlocan-Çarxana" kəndlərarası avtomobil yolu yenidən qurulmalıdır

**Məşrif kənd iəd üzrə nümayəndəlik**

Məşrif kənd iəd üzrə nümayəndəliyə Məşrif, Qalaaltı, Qozağacı, Qərəh, Daşlı Çalğan və Orta Çalğan kəndləri daxildir.

Məşrif, Qalaaltı, Qozağacı, Daşlı Çalğan və Orta Çalğan kəndlərinə aparan kəndlərarası avtomobil yolu yenidən qurulmuşdur.

Məşrif, Qalaaltı, Qozağacı, Daşlı Çalğan və Orta Çalğan kəndlərinin elektrik təsərrüfatı tam yenilənmiş, kəndləri qidalandıran yüksək gərginlikli elektrik xətləri təmir olunur. Qərəh kəndində bu işlər görülməlidir.

Məşrif, Qalaaltı və Qozağacı kəndləri qazlaşdırılmışdır. Daşlı Çalğan və Orta Çalğan kəndlərinin qazlaşdırılması zəruridir.

Məşrif, Qalaaltı və Qozağacı kəndlərində telefon var.

Məşrif, Qalaaltı, Qozağacı və Daşlı Çalğan kəndlərində yeni məktəb binaları tikilmişdir.

“Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihəsi çərçivəsində Məşrif bələdiyyəsinə məxsu yeni suvarılan torpaq sahələrinə suvarma suyu verilmişdir.

Rayon İcra Hakimiyyəti daxili imkanlar hesabına Məşrif, Daşlı Çalğan və Qozağacı kəndlərində dərinliyi 50 metr olan su quyuları qazdırmış və quyular istifadəyə verilmişdir. Digər kəndlərdə bu işin davam etdirilməsinə ehtiyac vardır.

Məşrif kənd iəd üzrə nümayəndəlik üçün inzibati bina tikilməsi zəruridir.

Məşrif həkim ambulatoriyası Məşrif kənd tam orta məktəbin binasında yerləşir. Daşlı Çalğan kənd tibb məntəqəsi münasib bina və ixtisaslı kadr olmadığından fəaliyyət göstərmir. Qozağacı tibb məntəqəsi xüsusi evdə fəaliyyət göstərir. Tibb məntəqəsi üçün modul tipli binanın quraşdırılması zəruri hesab edilir.

Qozağacı və Məşrif kənlərində kitabxanaların yerləşdiyi binalarda əsaslı təmir işləri aparılmamışdır. Həmin binaların əsaslı təmir və müasir inventar-avadanlıqlarla təmin olunması zəruri hesab edilir.

**Dağ Quşçu kənd iəd üzrə nümayəndəlik**

Dağ Quşçu kənd iəd üzrə nümayəndəliyə Dağ Quşçu və Əlməkolu kəndləri daxildir.

Dağ Quşçu kəndinə aparan kəndlərarası avtomobil yolu yenidən qurulmuşdur.

Dağ Quşçu kəndinin elektrik təsərrüfatı tam yenilənmiş, yeni yarımstansiya tikilmişdir. Əlməkolu kəndini qidalandıran yüksək gərginlikli elektrik xətləri bərpa olunmalıdır.

Dağ Quşçu kəndində yeni məktəb binası tikilmişdir.

Dağ Quşçu kəndində telefon var.

Dağ Quşçu kənd iəd üzrə nümayəndəliyin inzibati binasının əsaslı təmir olunması zəruridir.

Dağ Quşçu kənd tibb məntəqəsi münasib bina və ixtisaslı kadr olmadığından fəaliyyət göstərmir. Tibb məntəqəsi üçün modul tipli binanın quraşdırılması zəruri hesab edilir.

Dağ Quşçu kəndində mövcud bulaqlarda mənbə tükənmiş və əhali uzaq məsafədən suyu müxtəlif vasitələrlə daşıyırlar. Əhalinin içməli su ilə təmin olunması üçün içməli su təchizatı sisteminin yaradılmasına zəruri ehtiyac vardır.

Dağ Quşçu kəndinin qazlaşdırılması zəruridir.

**Ərziküş kənd iəd üzrə nümayəndəlik**

Ərziküş kənd iəd üzrə nümayəndəliyə Ərziküş, Yuxarı Ələz, Qaragöz, Hacışəkər, Künövşə, Yanıq Ələz və Köhnə Quşçu kəndləri daxildir.

Rayonun dağlıq ərazilərində yerləşən Ərziküş, Yuxarı Ələz, Qaragöz, Hacışəkər, Künövşə, Yanıq Ələz və Köhnə Quşçu kəndlərində bulaqların suyunun azalmasıı və yay aylarında mövcud çaylarda suyun olmaması müşahidə olunur ki, bu da əhalinin içməli su ilə təminatında ciddi çətinliklər yaradır. Əhali uzaq məsafədən suyu müxtəlif vasitələrlə daşıyırlar. Əhalinin içməli su ilə təmin olunması üçün içməli su təchizatı sisteminin yaradılmasına zəruri ehtiyac vardır.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Siyəzən rayonunun sosial-iqtisadi inkişafı üçün nəzərdə tutulmuş tədbirlər çərçivəsində kəndlərarası avtomobil yollarının yenidən qurulması və əsaslı təmirinin davam etdirilməsi tədbirləri sırasında "Siyəzən-Dağ Quşçu-Ərziküş avtomobil yolu"nun tikintisi nəzərdə tutulmuş, lakin işlərə başlanılmamışdır.

Ərziküş, Yuxarı Ələz, Qaragöz, Hacışəkər, Künövşə, Yanıq Ələz və Köhnə Quşçu kəndlərinin elektrik təsərrüfatı yenilənməmişdir. Bu kəndləri qidalandıran yüksək gərginlikli elektrik xətləri bərpa olunmalı və Köhnə Quşçu kəndində yağ açarının qoyulması zəruridir.

Kəndlərdə telefon yoxdur.

Ərziküş kənd iəd üzrə nümayəndəliyin inzibati binasının əsaslı təmir olunması zəruridir.

Yanıq Ələz kənd tibb məntəqəsi münasib bina və ixtisaslı kadr olmadığından fəaliyyət göstərmir. Tibb məntəqəsi üçün modul tipli binanın quraşdırılması zəruri hesab edilir.

"